# “Gəncə İş Adamları” İctimai Birliyinin təqdimat mərasimi keçirilib

***“Gəncə İş Adamları” İctimai Birliyi Gəncə şəhərində fəaliyyət göstərən sahibkarları vahid bir platforma ətrafında birləşdirən ictimai birlikdir. Burada məqsəd sahibkarlara dəstək olmaq, onların biznes üçün yaradılan imkanlara çıxışına nail olmaqdır.***

Tədbirdə çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, 44 günlük Zəfər savaşından sonra sahibkar və investorların Gəncəyə marağı daha da artıb. Nəticədə ilk 9 ayda şəhərdə 1500-dən artıq daimi iş yeri yaradılıb. N.Bayramov bildirib ki, yeni yaradılan “Gəncə İş Adamları Birliyi” şəhərdə fəaliyyət göstərən sahibkarlara dəstək olmaqla bölgədə iqtisadi fəallığa, investisiyaların artmasına təsir göstərəcək.

“Gəncə İş Adamları” İB-nin sədri Zəfər Məmmədov qurumun aktiv fəaliyyət göstərdiyini, yaxın vaxtlarda onun nəticələrinin özünü göstərəcəyini bildirib. Gəncə Şəhər İcra Hakimiyyətinin bu prosesə dəstək verdiyini xüsusi qeyd edən Birlik rəhbəri Gəncədə iqtisadi fəallığın artması üçün sovet dövründən qalma köhnə müəssisələrin bazasında yeni istehsal sahələrinin yaradılmasını təklif edib. Onun sözlərinə görə, bunun üçün iş adamlarına təşviq sənədinin, vergi və digər güzəştlərin təqdim edilməsi faydalı olardı. Qurum rəhbəri artıq bir sıra xarici iş adamlarının da Gəncəyə sərmayə yatırımı etməyə hazır olduğunu bildirib.

Tədbirdə çıxış edən Türkiyənin Gəncədəki baş konsulu Zəki Öztürk “Gəncə İş Adamları” İB-nin sahikarları bir araya gətirəcəyini bildirib. Onun sözlərinə görə türk iş adamlarının yerli sahibkarlarla birgə Gəncədə investisiya layihələri planlaşdırılır.

Tədbirdə tanınmış azərbaycanlı modelyer-dizayner, ətriyyatçı, Əməkdar incəsənət Xadimi Fəxriyyə Xələfova “Gəncə İş Adamları” İctimai Birliyinin regionun iqtisadi inkişafına mühüm tövhə verəcəyini və bunun respublikanın iqtisadiyyatına müsbət təsir göstərəcəyini bildirib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə heyəti sədrinin müavini Natiq Həsənov yeni birliyin yaradılmasını bölgədə sahibkarlığın inkişafı baxımından mühüm hadisə adlandıraraq birlik üzvlərini təbrik edib. Gəncədə tarixən sahibkarlıq ənənəsinin olduğunu xatırladan KOBİA sədrinin müavini bildirib ki, hətta sovet dövründə də şəhərdə sahibkarlığa mane ola bilməyiblər. N.Həsənov deyib ki, KOBİA ölkədə sahibkarlığın inkişafı ilə bağlı bir sıra istiqamətdə işlər aparır. Bura biznes mühitinin təkmilləşdirilməsi, maliyyə mənbələrinə, o cümlədən alternativ maliyyələşmə mənbələrinə çıxışın təmin edilməsi, biznes xidmətlərinin genişləndirilməsi, sahibkarlar arasında təmasların təşkil edilməsi və sair aiddir.



Tədbirdə çıxış edən Sahibkarlığın İnkişafı Fondunun, Peşə Təhsili Ageniliyinin, Məşğulluğun İnkişafı Agentliyinin rəhbərləri və nümaynədələri regionun böyük iqtisadi potensialının olduğunu, onun reallaşması üçün hazırlıqlı işçi qüvvəsi tələb olunduğunu və bununla bağlı müxtəlif layihələrin həyata keçirildiyini qeyd ediblər.

Tədbirdə “Gəncə İş Adamları” İB-nin İdarə heyətinin üzvü Camid Mövsümov birliyin iş prinsipi, birlik tərəfindən sahibkarlara göstəriləcək dəstək üsulları, xarici investorların bölgəyə marağı barədə danışaraq iş adamlarını fəal olmağa, hazırda mövcud olan geniş imkanlardan yararlanmağa çağırıb.

Təqimat mərasiminə xarici investor kimi qatılan Yaponiyanın TET İnternational Development şirkətinin prezidenti Taro Savado iş adamlarına şirkətin fəaliyyəti və yerli biznes üçün əməkdaşlıq imkanları barədə məlumat verib.

Mərasimdə Gəncənin tarixi və iqtisadi imkanlarına, eləcə də “Gəncə İş Adamları” İB-nin fəaliyyəti ilə bağlı video çarxlar nümayiş etdirilib. Bildirilib ki, fəaliyyətə başlamasından qısa müddət keçməsinə baxmayaraq qurum artıq biznes forumlara və işgüzar görüşlərə qatılır, sosial məsuliyyət aksiyaları keçirir, o cümlədən Vətən müharibəsi qaziləri və şəhid ailələrinin problemlərinin həllində yaxından iştirak edir.

Tədbirdə çıxış edən Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri Birliyinin (TÜİB) sədri Hüseyin Büyükfırat və Azərbaycan Pakistan İqtisadi Əməkdaşlıq Palatasının İdarə heyətinin sədri Azər Əkbərov yeni quruma uğurlar arzu ediblər. Qeyd olunub ki, Birliyə üzv olmaq istəyən sahibkarlar qurumun rəsmi internet səhifəsi vasitəsilə (Gia.org.az) müraciət edə bilərlər.

Qeyd edək ki, tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin rəhbərliyi ilə yanaşı, İqtisadiyyat Nazirliyinin ayrı-ayrı qurumları, KOBİA, Sahibkarlığın İnkişafı Fondu, Dövlət Məşğulluq Xidməti, Peşə Təhsili üzrə Dövlət Agentliyi, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri Birliyinin (TÜİB) nümayəndələri, mətbuat işçiləri iştirak edib.

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

Xalq qəzeti .- 2021.- 21 dekabr.- S.10.